

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 246 (21.656)

*24 dekabr 2016-cı il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*




Dekabrın 23-də Milli Olimpiya Komitəsində 2016-cı ilə yekun vurulub, idmançılara və idman mütəxəssislərinə mükafatların təqdim edilməsi mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlətimizin başçısı tədbirdə nitq söyləyib.

Sonra 2016-cı ildə yüksək nailiyyətlər qazanan idmançılara və idman mütəxəssislərinə mükafatlar təqdim olunub.

Prezident İlham Əliyev 2016-cı ildə yüksək nailiyyətlər göstərmiş bir qrup idmançıya və idman mütəxəssisinə yeni mənzillərin orderlərini təqdim edib.

Daha sonra Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, Miniatür Kitab Muzeyinin təsisçisi və rəhbəri, Əməkdar incəsənət xadimi Zərifə Salahova Azərbaycan Prezidenti İlham Əliyevə xatirə hədiyyələri təqdim edib, dövlətimizin başçısına fəaliyyətində uğurlar arzulayıb.

## “Rəşadətli əməyə görə” nişanı ilə təltif haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında yol-tikinti sahəsində səmərəli fəaliyyətlərinə görə:

Abdullayev Elmixan Qulu oğlu

Əhmədov Vilayət Əhməd oğlu

Əliyev Natiq Mustafa oğlu

Həsənquliyev Səfər Əli oğlu

İmanov Hidayət Ədalət oğlu – **“Rəşadətli əməyə görə”** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 23 dekabr 2016-cı il*

## Ali təhsil ocağında görkəmli alimin 90 illik yubileyi qeyd edilib



***Naxçıvan Dövlət Universitetində görkəmli alim Aqil Əliyevin anadan olmasının 90 illik yubileyi münasibətilə elmi-praktik konfrans keçirilib.***

Tədbiri giriş sözü ilə Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq elmi-praktik konfransın Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Aqil Əliyevin 90 illik yubileyinin keçirilməsi haqqında” 2016-cı il 8 dekabr tarixli Sərəncamına uyğun olaraq keçirildiyini deyib.

Rektor bildirib ki, görkəmli alim səmərəli elmi-pedaqoji fəaliyyəti ilə Azərbaycan iqtisadiyyatının və təhsilinin inkişafına layiqli töhfələr verib. Azərbaycan iqtisad elminin görkəmli nümayəndəsi Aqil Əliyevin əsas elmi fəaliyyəti kənd təsərrüfatının maddi-texniki bazasının inkişafına, kənd əhalisinin sosial rifahının yüksəldilməsinə, səhiyyənin iqtisadi problemlərinin həllinə yönəlib. Onun tədqiqatlarında səhiyyə ilə iqtisadi inkişaf arasında qarşılıqlı əlaqə məsələləri xüsusi yer tutub.

Bildirilib ki, o, məhsuldar elmi tədqiqatlarla yanaşı, pedaqoji fəaliyyətlə də məşğul olub. Alim uzun müddət Azərbaycan Tibb Universitetində siyasi iqtisadiyyatdan mühazirələr oxuyub, kafedra müdiri vəzifəsində çalışıb.

Sonra AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin “Aqil Əliyev görkəmli elm xadimi kimi”, Naxçıvan Dövlət Universitetinin İqtisad fakültəsinin dekanı, dosent Mehdi Bağırovun “Aqil Əliyev Azərbaycan iqtisad məktəbinin tanınmış simalarından biri kimi”, Naxçıvan Dövlət Universitetinin Dünya iqtisadiyyatı kafedrasının müdiri, dosent Ceyhun Mahmudovun “Azərbaycan iqtisad elminin inkişafında Aqil Əliyev töhfələri”, AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun İqtisadiyyat şöbəsinin böyük elmi işçisi, iqtisad üzrə fəlsəfə doktoru Sevinc Cabbarovanın “Aqil Əliyev və məhsuldar qüvvələr nəzəriyyəsi” mövzularında çıxışları olub.

Çıxışlarda qeyd edilib ki, ölkəmizdə ictimai və humanitar elmlərin əsas istiqamətini təşkil edən cəmiyyətin inkişafı məsələləri elmdə müxtəlif aspektlərdə araşdırılır. Görkəmli alim Aqil Əliyev cəmiyyətin inkişafında sosial sahənin roluna və əhəmiyyətinə həsr edilən qiymətli elmi əsərləri ilə iqtisad elmindəki boşluqlar aradan qaldırılıb. O, bu həssas istiqamətdə baş verən prosesləri təqdim etmək üçün sosial siyasətdən daha çox sosial həyatın reallıqlarını öyrənib ümumiləşdirməyə üstünlük verib. Görkəmli alim insanın sosial həyatını onun cəmiyyətdəki yeri və rolu ilə əlaqəli araşdırıb, ümumiləşdirmələr aparıb və elmi nəticələr çıxarıb. Beləliklə, elmdə Azərbaycan cəmiyyətinin sosial siması müəyyənləşdirilib. Aqil Əliyev ölkəmizdə sosial sahənin iqtisadiyyatına həsr olunan əsərləri geniş mənada cəmiyyətin aktual məsələlərinin tədqiqinə xidmət edir. Ötən əsrin son rübündə həyat səviyyəsinin problemləri üzrə Azərbaycanın ən tanınmış iqtisadçılarından biri olan Aqil Əliyev böyük iqtisadçı alim, mahir pedaqoq, yaxşı təşkilatçı olmaqla yanaşı, həm də qayğıkeş insan idi.

**Səbuhi HÜSEYNOV**

## “Dünya və insan: başlanğıcın sonu, sonun başlanğıcı” kitabı “Naxçıvan” Universitetinin Dinşünaslıq ixtisasında dərs vəsaiti kimi istifadə olunacaq

***Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktor müavini, AMEA-nın müxbir üzvü Qadir Qədirzadənin 2016-cı ildə nəşr olunan “Dünya və insan: başlanğıcın sonu, sonun başlanğıcı” kitabının “Naxçıvan” Universitetinin Dinşünaslıq ixtisasına dərs vəsaiti kimi tövsiyə edilməsi ilə bağlı “Naxçıvan” Universitetinin Elmi Şurasının iclası keçirilib.***






Şura iclasını universitetin rektoru İsmayıl Əliyev açıb. Bildirib ki, müstəqillik illərində ali məktəblərdə tədrisi zəruri sayılan bir sıra ixtisasların dərindən öyrədilməsi bu gün qarşıda duran vəzifələrdəndir. Universitetimizdə Dinşünaslıq ixtisasının açılması bu sahədə mütəxəssis hazırlığı baxımından mühüm əhəmiyyət daşıyır. Təbii ki, bunun üçün dərs vəsaitlərinə böyük ehtiyac var. AMEA-nın müxbir üzvü Qadir Qədirzadənin “Dünya və insan: başlanğıcın sonu, sonun başlanğıcı” kitabı bu cəhətdən üstün məziyyətləri ilə diqqəti çəkir. Müəllifin uzunillik zəhməti əsasında ərsəyə gəlmiş kitab insan və onun yaradılışı, insan və cəmiyyət, insan və dünya və digər məsələlərə aydınlıq gətirmək baxımından faydalı vəsaitdir.

İclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış edərək bildirib ki, milli-mənəvi irsimizin, onun tərkib hissəsi kimi dini dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması müasir dövrdə xüsusi aktuallıq kəsb edir. Çünki bu dəyərlərin xalqımızın formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmlənməsində də xüsusi rolu vardır. **“Dinimiz milli sərvətimizdir”**, – deyən ümummilli lider Heydər Əliyevin xidmətləri nəticəsində bu gün milli və dini dəyərlərimiz dövlətin himayəsi altında qorunur və daha da inkişaf etdirilir.

Muxtar respublikamızda da dini dəyərlərimizin qorunmasına və təbliğinə xüsusi diqqət yetirilir, dini bayramlarımız yüksək səviyyədə qeyd edilir, ziyarətgahlarımız, məscidlərimiz təmir və bərpa olunur. Bu sahədə təşkilati strukturun formalaşdırılması, din sahəsində təhsilli mütəxəssislərin hazırlanması da diqqətdə saxlanılır. Bu məqsədlə 2015-2016-cı tədris ilindən “Naxçıvan” Universitetində Dinşünaslıq ixtisası açılmış, ixtisas üçün ayrıca kitabxana yaradılmışdır. Kitabxananın zənginləşdirilməsi sahəsində müvafiq tədbirlər görülür.

Qeyd edilib ki, “Naxçıvan” Universitetinin Dinşünaslıq ixtisasında tədris prosesində istifadə olunacaq dərslik və dərs vəsaitlərinin seçilməsi olduqca vacibdir. Tədris prosesində dinin düzgün təbliğinə xidmət edən kitabların istifadəsi təmin edilməlidir. Bəzi kitablar vardır ki, onlar dərs vəsaiti kimi tədris prosesində istifadə oluna bilər.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktor müavini, AMEA-nın müxbir üzvü Qadir Qədirzadənin 2016-cı ildə nəşr olunan “Dünya və insan: başlanğıcın sonu, sonun başlanğıcı” kitabı mənəviyyat mövzusunda ədəbiyyatlar içərisində seçilir. Kitabda dünya-insan münasibətləri, insanın daxili aləmi, həyat və ölüm, bunların vəhdəti, kamillik həddinə yüksəlmə yolları haqqında dərin məzmunlu və real həyatı əks etdirən məlumatlar verilir. Qadir Qədirzadənin bu kitabı milli-mənəvi dəyərlərimizin təbliği, insan təfəkkürünün formalaşması, mənəviyyatının inkişafı baxımından dəyərlidir. Buna görə də kitabda qeyd olunan fikirlər təbliğ edilməlidir.

Rəhman Məmmədov şura üzvlərinin diqqətinə çatdırıb ki, qeyd olunanlar nəzərə alınaraq AMEA-nın müxbir üzvü Qadir Qədirzadənin “Dünya və insan: başlanğıcın sonu, sonun başlanğıcı” kitabı Ali Məclisin Sədri tərəfindən “Naxçıvan” Universitetinin Dinşünaslıq ixtisası üzrə dərs vəsaiti kimi tövsiyə olunur və bununla bağlı müvafiq qərar qəbul edilməsi üçün universitet Elmi Şurasının müzakirəsinə təqdim edilir.

Elmi Şura iclasında çıxış edən Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarənin rəisi Vüqar Babayev adıçəkilən kitabın yüksək məziyyətlərindən, elmi dəyərindən danışıb, Dinşünaslıq ixtisasında təhsil alan tələbələr, həmçinin geniş oxucu kütləsi üçün qiymətli bir vəsait olduğunu diqqətə çatdırıb.

Universitetin prorektoru, tarix üzrə fəlsəfə doktoru, Elmi Şuranın üzvü İbrahim Kazımbəyli, İdarəetmə fakültəsinin dekanı, tarix üzrə fəlsəfə doktoru, Elmi Şuranın üzvü Elbrus İsayev “Dünya və insan: başlanğıcın sonu, sonun başlanğıcı” kitabının Dinşünaslıq ixtisasına dərs vəsaiti kimi tövsiyə edilməsini dəstəklədiblər.

Elmi Şuranın iclasında iştirak edən kitabın müəllifi, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktor müavini, AMEA-nın müxbir üzvü Qadir Qədirzadə çıxış edərək əməyinə verilən yüksək qiymət üçün minnətdarlığını bildirib.

Elmi Şurada müzakirə edilən məsələ ilə bağlı çıxışlar ümumiləşdirilərək, “Dünya və insan: başlanğıcın sonu, sonun başlanğıcı” kitabının elmi və metodik dəyəri nəzərə alınaraq kitabın Dinşünaslıq ixtisasına dərs vəsaiti kimi təsdiq edilməsi qərara alınıb.

**“Şərq qapısı”**

***Azərbaycan SSR Avtomobil Yolları Təmiri və İstismarı Nazirliyinin 1986-cı il 25 dekabr tarixli əmri ilə Naxçıvan Avtomobil Yolları Təmiri və İstismarı İdarəsi yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1996-cı il 9 dekabr tarixli Fərmanına əsasən isə Naxçıvan Avtomobil Yolları Təmiri və İstismarı İdarəsinin bazasında Naxçıvan Avtomobil Yolları Dövlət Şirkəti yaradılmışdır.***

# Naxçıvanda müasir yol infrastrukturu yaradılır










Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***"Yol mədəniyyət, iqtisadiyyat, bir sözlə, həyat deməkdir".*** Dahi şəxsiyyətin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra əldə olunan sabitlik və iqtisadi inkişaf ölkə iqtisadiyyatının bütün sahələrində olduğu kimi, yol-nəqliyyat kompleksinin də yenidən qurulmasına, müasir avtomobil yollarının çəkilişinə əlverişli şərait yaratmışdır. Hazırda bu istiqamətdə işlər ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Ölkəmizdə, o cümlədən muxtar respublikada yol-nəqliyyat kompleksinin yeniləşməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində həyata keçirilən kompleks tədbirlər öz bəhrəsini verib. Muxtar respublikanın yaşayış məntəqələrində – şəhər, qəsəbə və kəndlərdə avtomobil yolları yenidən qurulur.

Naxçıvan Avtomobil Yolları Dövlət Şirkəti və onun tabeliyində olan yol istismar idarələrinin maddi-texniki bazası xeyli möhkəmləndirilmiş, yol tikintisini həyata keçirmək üçün müasir texnikalar alınmış, kollektiv lazımi iş şəraiti ilə təmin olunmuşdur. Son illər muxtar respublikada müasir avadanlıqlarla təmin olunmuş yeni asfalt-beton zavodları, qumçınqıl karxanaları və bitum anbarları istifadəyə verilmişdir. Bu sahədə həyata keçirilən tədbirlər muxtar respublikada yol tikintisinin səmərəli təşkilinə şərait yaratmış, müasir mühəndis-texniki tələblərə cavab verən avtomobil yolları inşa olunmuş, mövcud yol-nəqliyyat kompleksi təkmilləşdirilmiş, yeni körpülər tikilmişdir.

Naxçıvan Muxtar Respublikası Böyük İpək Yolunun üzərində yerləşir. Ona görə də həyata keçirilən quruculuq tədbirləri zamanı yol tikintisinə, xüsusilə Böyük İpək Yolunun bərpasına xüsusi diqqət yetirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin birbaşa qayğısı və iştirakı ilə uzunluğu 87 kilometr olan Naxçıvan-Sədərək, uzunluğu 34 kilometr olan Naxçıvan-Culfa və uzunluğu 88,8 kilometr olan Naxçıvan-Şahbuz-Batabat magistral avtomobil yolları müasir tələblər səviyyəsində yenidən qurularaq istifadəyə verilmişdir. Magistral avtomobil yollarının yenidən qurulması və Böyük İpək Yolunun bərpası Naxçıvanın tranzit imkanlarını xeyli artırmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvanda bu istiqamətdə həyata keçirilən tədbirləri yüksək qiymətləndirərək demişdir: ***"Harada ki, yol tikilir, orada inkişaf vardır. Ona görə də bu gün yol tikintisi Azərbaycanın bütün bölgələrində sürətlə gedir. O cümlədən Naxçıvanda da bu gözəl proseslər sürətlə gedir və həll olunur. Artıq burada yerli şirkətlər vardır ki, bu cür yolları çox keyfiyyətlə tikə bilirlər".***

Muxtar respublikada magistral avtomobil yolları ilə yanaşı, kənd yollarının yenidən qurulması da diqqət mərkəzindədir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına uyğun olaraq 5 yaşayış məntəqəsini əhatə edən Təzəkənd-Çalxanqala-Qıvraq dairəvi, 20 yaşayış məntəqəsini əhatə edən Çeşməbasar-Boyəhməd, 13 kəndi əhatə edən Hacıvar-Vayxır-Sirab və 7 yaşayış məntəqəsini əhatə edən Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolları yenidən qurularaq istismara verilmişdir.

İqtisadi inkişafın başlıca şərtlərindən biri də yol infrastrukturunun yenidən qurulmasıdır. Muxtar respublikanın ən ucqar dağ və sərhəd kəndlərinin yol infrastrukturunun tamamilə müasirləşdirilməsi də yaşayış məntəqələri arasında avtomobillərin təhlükəsiz və rahat hərəkətinə, eləcə də kəndlərin turizm potensialının artmasına və iqtisadiyyatın inkişafına səbəb olmuşdur. Təkcə bir faktı qeyd edək ki, son illər muxtar respublikamızda kəndlərarası və kənddaxili avtomobil yolları da daxil olmaqla salınan avtomobil yollarının həcmi sovet dövründə salınmış avtomobil yollarının həcmindən dəfələrlə çoxdur. Hər il payız-qış mövsümünə hazırlıqla əlaqədar həyata keçirilən kompleks tədbirlər muxtar respublikada mövcud olan 274 kilometr dövlət əhəmiyyətli və 1199 kilometr yerli əhəmiyyətli avtomobil yollarında qarlı-çovğunlu günlərdə belə, hərəkətin intensivliyini tam təmin etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir: ***"Yol tikintisi Azərbaycan dövlətinin iqtisadi qüdrətinin və vətəndaşlarına göstərdiyi qayğının təzahürüdür".*** Bu sahədə reallaşdırılan layihələrin əsas hədəfi muxtar respublikanın sosial-iqtisadi inkişafını təmin etməkdir. Bütün bu işlərdə isə avtomobil yol işçilərinin üzərinə mühüm vəzifələr düşür. Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Şirkətinin kollektivi mövcud imkanlardan səmərəli istifadə edərək bundan sonra da muxtar respublikanın yol-nəqliyyat infrastrukturunun inkişafına öz töhfələrini verəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Şirkətinin mətbuat xidməti***

# İqtisadi artımın davamlılığı təmin olunub



***Dünya iqtisadiyyatının dalğalı inkişafı dövründə iqtisadi artımın müsbət rəqəmlərlə ifadə olunan həcmdə saxlanılması mühüm şərtlərdəndir. Bu baxımdan muxtar respublikamızın iqtisadi inkişafının səviyyəsi haqda bitkin təsəvvür yaradan ümumi daxili məhsulun həcminin artım dinamikası dünyada gərgin keçən iqtisadi konyunktura şəraitində öz sabitliyini qorumaqdadır.***

Belə ki, Naxçıvan Muxtar Respublikasında 2016-cı ilin yanvar-noyabr aylarında 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,6 faiz çox, yəni 2 milyard 251 milyon 910 min 900 manatlıq ümumi daxili məhsul istehsalı iqtisadi resursların məhdud olduğu bir şəraitdə iqtisadi artım üçün daxili ehtiyatlardan səmərəli istifadə olunması və rasional idarəetmənin nəticəsində mümkün olub. Ümumi daxili məhsulun keyfiyyət göstəricisi kimi onun əhalinin hər bir nəfərinə düşən həcmi isə bu dövrdə daha çox artımla, yəni 3,6 faiz yüksəlişlə müşayiət olunaraq 5042,3 manata çatıb.

Təhlil olunan dövr muxtar respublikanın iqtisadi həyatının bütün sahələrində müsbət dinamika ilə xarakterizə olunur. Belə ki, iqtisadi artımın faizlə göstəricisində ilk yeri tutan aqrar sektorda bəhs olunan dövr üçün yüksəliş dinamikası 6 faizlə müşahidə olunaraq 369 milyon 626 min 500 manat həcmində kənd təsərrüfatı məhsulu istehsalı ilə nəticələnib. Muxtar respublikada yaradılan ümumi daxili məhsulun tərkibində ilk yeri tutan sənaye sahəsində də artım mövcud şərtlərə görə müqayisədə kifayət qədər yüksək olub. Belə ki, 2016-cı ilin yanvar-noyabr aylarında muxtar respublikada sənaye üzrə 859 milyon 555 min 800 manat həcmində məhsul istehsal edilib ki, bu da 2015-ci ilin müvafiq dövründəki göstəricidən 1,9 faiz çoxdur.

İqtisadi fəallıq muxtar respublikanın xarici ticarət əlaqələrinin həcminin qorunub saxlanılmasında da özünü göstərir. Belə ki, cari ilin yanvar-noyabr aylarında muxtar respublikada 413 milyon 185 min 800 ABŞ dolları həcmində xarici ticarət dövriyyəsi qeydə alınıb. İxracın həcmi son bir il ərzində 1,1 faiz artaraq 378 milyon 761 min 700 ABŞ dolları, idxalın həcmi 42,6 faiz azalaraq 34 milyon 424 min 100 ABŞ dolları təşkil edib, 344 milyon 337 min 600 ABŞ dolları həcmində müsbət saldo yaranıb. Muxtar respublikada əhali tələbatlarının daha çox yerli məhsullarla ödənilməsi, xarici analoqlarından daha keyfiyyətli və qiymətcə daha münasib idxaləvəzləyici məhsul istehsalına ayrılan diqqət bu məqamda ixracyönümlü fəaliyyəti stimullaşdırmaqla bərabər, həm də idxaldan asılılığın əhəmiyyətli dərəcədə azaldılmasında mühüm rol oynayıb.

İqtisadiyyatın stabil inkişaf dinamikası bank-kredit təşkilatlarının da fəaliyyətinə müsbət təsir edib. Bu baxımdan cari ilin yanvar-noyabr aylarında muxtar respublikamızın bank və kredit təşkilatları tərəfindən təsərrüfat subyektlərinə verilən kreditlərin həcmi diqqəti cəlb edir. Belə ki, bu müddətdə muxtar respublika ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərə 39 milyon 798 min 900 manat məbləğində kreditlər verilib ki, bunun da 25,2 faizi qısamüddətli, 74,8 faizi isə uzunmüddətli kreditlər olub. Eyni zamanda ötən ilin müvafiq dövrü ilə müqayisədə sığorta daxilolmaları sahəsində əldə olunmuş 1,4 faizlik artım da iqtisadiyyatın sağlam təməllər üzərində qurulduğunun göstəricisidir. Təsərrüfat subyektlərində iqtisadi fəallığın qorunub saxlanılması burada işlə təmin olunmuş işçilərin gəlirlərinin də artımına təsir edib. Belə ki, cari ilin yanvar-oktyabr aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği 411,2 manat təşkil edib ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4,4 faiz çoxdur.

İnsanların firavan sosial həyatı iqtisadi inkişafın tamamlayıcısı, onun mühüm keyfiyyət göstəricilərindəndir. Bu baxımdan başa çatmaqda olan 2016-cı ildə əhalinin rabitə, informasiya və digər pullu xidmətlərdən istifadəsindəki artım, regiona səyahət edən turistlərin sayının çoxalması və muxtar respublika əhalisinin də ötən illə müqayisədə 5 min nəfərə yaxın artması diqqəti cəlb edən müsbət cəhətlərdəndir.

**Əli CABBAROV**

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun yerli orqanları tərəfindən 2016-cı il ərzində məcburi dövlət sosial sığortası üzrə müavinətlərin maliyyələşdirilməsi hər ay vaxtından əvvəl başa çatdırılıb.***

# Cari ildə 9558 nəfərə məcburi dövlət sosial sığortası üzrə ödəmələr həyata keçirilib

Məcburi dövlət sosial sığorta ödəmələri almaq hüququ olan sığortaolunanlara ödənilən müavinətlər təqdim olunmuş haqq-hesab cədvəllərindəki bank rekvizitlərinə uyğun olaraq plastik bankomat kartlara köçürülüb.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun yerli orqanları tərəfindən cari il ərzində sığortaedənlər tərəfindən təqdim olunan müvafiq təsdiqedici sənədlərə əsasən, məcburi dövlət sosial sığorta ödəmələri almaq hüququ olan 513 nəfər sığortaolunana əmək qabiliyyətinin müvəqqəti itirilməsinə, 6027 nəfər sığortaolunana uşağın anadan olmasına, 1331 nəfərə hamiləliyə və doğuma görə, 1581 nəfər sığortaolunana isə uşağın üç yaşı tamam olanadək ona qulluq etməyə görə müavinət ödənilib. Eyni zamanda vəfat etmiş 106 nəfər sığortaolunanı dəfn etməyi öhdəsinə götürən şəxsə isə dəfn üçün müavinət verilib. Ümumilikdə, muxtar respublika üzrə 9558 nəfər sığortaolunana fondun yerli orqanları tərəfindən məcburi dövlət sosial sığortası üzrə ödəmələr həyata keçirilib.

Qeyd edək ki, əmək qabiliyyətinin müvəqqəti itirilməsinə, hamiləliyə və doğuma görə müavinət almaq hüququ ən azı 6 ay sosial sığorta stajı olan şəxslərə şamil edilir. Müvafiq müavinətlərin məbləği isə yaşa görə əmək pensiyasının baza hissəsinin 25 mislindən artıq ola bilməz. Məlumat üçün bildirək ki, ölkə başçısının müvafiq fərman və sərəncamlarına uyğun olaraq uşağın anadan olmasına görə birdəfəlik müavinətin məbləği 2016-cı ilin fevral ayından etibarən 99 manat, uşağa qulluğa görə müavinətin məbləği bir yaş yarımadək uşağa qulluğa görə 40 manat məbləğində, bir yaş yarımdan üç yaşınadək uşağa qulluğa görə isə 25 manat olaraq müəyyənləşdirilib, sığortaolunanlar vəfat etdikdə isə dəfn üçün müavinətin məbləği 132 manat məbləğində təyin olunub.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Naxçıvan Dövlət Xalça Muzeyinə sakinlər tərəfindən yeni eksponatlar təqdim olunub

*Maddi-mədəni irsimizin qorunmasında və təbliğində muxtar respublika sakinləri də səylərini əsirgəmir, bu istiqamətdə həyata keçirilən tədbirlərdə fəallıq göstərir, əldə olunan maddi-mədəniyyat nümunələrini muzeylərimizə hədiyyə edirlər.*



Dekabrın 23-də Nehrəm kənd sakini, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Akif Hacıyev tərəfindən XIX əsrin sonuna aid yun palaz, XX əsrin əvvəllərinə aid parça arxalıq, XX əsrə aid dəmir həvə, XX əsrin ortalarına aid qadın yun corabı, XX əsrin əvvəllərinə aid açıqqızılı rəngli parça örtük, Sədərək kənd sakini Kəmalə Əliyeva tərəfindən ağ rəngli toxuma əl işi, Nəhəcir kənd sakini Qalib Nağıyev tərəfindən, təxminən, 200 illik tarixi olan cəhrə, Axura kənd sakini Firuzə Mehdiyeva tərəfindən yun darağı, Şahbuz şəhər sakini Vahab Hüseynov tərəfindən XIX əsrin sonu, XX əsrin əvvəllərinə aid xalça Naxçıvan Dövlət Xalça Muzeyinə təqdim olunub.

Bu münasibətlə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova bildirib ki, muxtar respublikada bütün sahələr, o cümlədən mədəniyyət sahəsi də inkişaf etdirilir. Bu gün tariximizin, mədəniyyətimizin, adət-ənənələrimizin qorunub gələcək nəsillərə çatdırılması daim diqqət mərkəzindədir. Naxçıvan Muxtar Respublikasında 29 muzey və muzeytipli müəssisə fəaliyyət göstərir. Həmin mədəniyyət müəssisələrində 112 mindən çox maddi-mədəniyyət nümunələri qorunub saxlanılır. Müstəqillik illərinə qədər muxtar respublika ərazisində 13 muzey fəaliyyət göstərirdisə, ötən dövrdə 16 muzey yaradılıb.

Artıq 5 ilə yaxındır ki, Naxçıvan Dövlət Universitetində muzey işi sahəsində ixtisaslı kadrlar yetişdirilir. Bu gün muzeylərimizi ziyarət edənlərin sayı əhəmiyyətli dərəcədə artıb və muzey işçilərinin öhdəsinə daha böyük vəzifələr qoyulub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" 2014-cü il 19 dekabr tarixli Sərəncamına əsasən, muxtar respublikanın nazirlik, komitə və təşkilatlarının kollektivləri mütəşəkkil şəkildə muzeylərimizi ziyarət edirlər. Bundan başqa, tələbə-gənclərin, şagirdlərin, müxtəlif xidmət sahələrində çalışanların da muzeyləri ziyarəti təmin olunub. Təkcə bu ilin ötən dövrü ərzində muzeylərimizi 29 mindən çox tamaşaçı ziyarət edib. Bunların arasında həm yerli sakinlər, həm Azərbaycanın digər regionlarından muxtar respublikamıza gələn qonaqlar və xarici ölkə vətəndaşları olublar. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamına əsasən, bu gün muzeylər ilə orta məktəblər arasında distant dərslər təşkil edilir.



Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən mütəşəkkil şəkildə muzeylərimiz üçün maddi-mədəniyyət nümunələrinin toplanması işi də diqqətdə saxlanılır. Bu işdə muxtar respublika sakinləri öz köməkliklərini göstərirlər. Təkcə 2016-cı il ərzində muzeylərə 1500-ə yaxın yeni eksponat daxil olub. Bu tədbirlərin davamı olaraq bu gün Naxçıvan Dövlət Xalça Muzeyinə yeni eksponatlar təqdim edilir.

Sonra Nehrəm kənd sakini Akif Hacıyev, Sədərək kənd sakini Kəmalə Əliyeva, Nəhəcir kənd sakini Qalib Nağıyev, Şahbuz şəhər sakini Vahab Hüseynov çıxış ediblər.

Çıxışlarda bildirilib ki, bu gün muxtar respublikada maddi-mədəni irsimizin qorunub yaşadılması sahəsində ardıcıl tədbirlər görülür. Muzeylərin eksponatlarla zənginləşdirilməsi, yeni muzeylərin yaradılması sahəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən həyata keçirilən tədbirlər minnətdarlıqla qarşılanır. Hər kəs mədəni irsimizin qorunub yaşadılması sahəsində həyata keçirilən tədbirlərə öz töhfəsini verməyə çalışır. Sakinlər tərəfindən qədim məişət əşyalarının, xalçaların muzeylərə təqdim edilməsi də, bu mənada, mühüm əhəmiyyətə malikdir. Bu eksponatların muzeylərimizə verilməsi zəngin mədəni irsimizin qorunub yaşadılmasına və gələcək nəsillərə çatdırılmasına xidmət edir. Muxtar respublikada maddi-mədəniyyət nümunələrinin toplanmasında bundan sonra da fəal iştirak edəcəyik.

Sonda tədbir iştirakçıları muzeylə tanış olublar.

**Hafizə ƏLİYEVA**

## Gənc nəslin ekoloji təhsili günün tələbidir





*Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Təhsil Nazirliyi tərəfindən ümumtəhsil məktəblərində və məktəbdənkənar tərbiyə müəssisələrində Naxçıvan təbiətinin öyrənilməsi, təbiətə qayğı ilə yanaşılması və ekoloji məsələlərə münasibətin formalaşdırılması məqsədilə müxtəlif tədbirlər həyata keçirilir.*

Bu tədbirlərin davamı olaraq Naxçıvan Dövlət Texniki Kollecində gənc nəslin ekoloji biliklərinin artırılması məqsədilə sərgi-seminar təşkil olunub.

Seminarı kollecin direktoru Asəf Ruşanov açaraq bildirib ki, təbiəti qorumaq və ekoloji məsələlərə tələbələrin diqqətini artırmaq üçün, ilk növbədə, onlara təbiət elmlərini yaxşı öyrətməli və sevdirməliyik. Təbiəti qorumaq bizim vətəndaşlıq borcumuz olduğu üçün elə bu bilikləri də vətəndaş kimi formalaşdığımız təhsil müəssisələrində öyrənməliyik.

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları Elçin Kazımov və Hicran Abışov çıxışlarında bildiriblər ki, bu gün ölkəmizdə və muxtar respublikamızda təbiətin qorunması və əlverişli ekoloji mühitin yaradılması, ən əsası vətəndaşlarımızın ekoloji təhlükəsiz yaşamasının təmin edilməsi üçün bütün tədbirlər görülür. Buna görə də çalışmalıyıq ki, ana təbiətin qorunmasında, ekologiya və ətraf mühitin mühafizəsində layiqincə iştirak edək.

Sonra tələbələr muxtar respublikanın bitki və heyvanat aləminə həsr olunmuş sənədli filmə və sərgiyə baxıblar.

**Səbuhi HƏSƏNOV**

***Adətən, müxtəlif kitablarla bağlı yazılarıma "bu yaxınlarda filan alimin filan kitabı nəşr edilib", – deyə başlayıram. Amma bəzi kitablarda bunu yazmaq əlimdən gəlmir. Bu, o zaman baş verir ki, haqqında bəhs etdiyim kitabın məzmunu mahiyyətindən daha böyük olur. O, əsərin nəşri deyil, məzmununun özü hadisəyə çevrilir.***

*Yeni nəşrlər*

## Mənəviyyatımıza və milli kimliyimizə fərqli baxış – iki monoqrafiyanın dili ilə







Qadir müəllim haqqında yazdığım kiçik qeydlərimdən biri belədir: "Allahının qulu, sözünün ağası olan Hacıqadir Qədirzadəyə". Həqiqətən də, tanıdığım müddətdə ondan gördüyüm yalnız və yalnız bu olub: yaranmışı Yaradandan ötrü sevmək. İnsanın özünün seçmədiyi, Allahın ona istədiyi kimi bəxş etdiyi nəsnələrə görə kimsəni ittiham etməmək. Yaradana qul, deyəcəyi sözə isə hakim olmaq. Elə "Dünya və insan: başlanğıcın sonu, sonun başlanğıcı" adlı yeni monoqrafiya da məhz bu düşüncənin işığında yazılıb.

Əslində, sonunu dərk etmiş insanın dünya və insan məsələsinə müdrik baxışının nəticəsidir bu əsər. Burda çətin olan əsəri yazmaq deyil, fövqəladə cəsarət və iradə tələb edən "sonu dərk etmək" hissəsidir. Çünki bizim ən böyük problemlərimizdən biri bəzi hallarda dərk etmədən öncə yazmaq istəməyimizdir. Sözün dəyərini bilən, sözünün haqqını verən, sözünün ağası olan insanlar üçün isə bu, mümkün deyil. Dərk etmədən yazmaq sözə xəyanətdir, söz isə Yaradanın insana ən böyük əmanətidir.

AMEA-nın müxbir üzvü Qadir Qədirzadənin bu əsərində bir elm var, bir də mənəviyyat var. Ya da daha dəqiq desək, mənəviyyata xidmət edən elm var. "Dünya və insan – baxışlar, düşüncələr", "Dünya insanla dünyadır, dünyada ayrıca dünyadı insan", "Qurani-Kərim"də dünya və insan", "Şeyx Nizami və dünya", "Nəsimi və dünya", "Ruh dünyasından seçmələr", "Mən və dünya", "Qərib kimdir, qəribçilik nədir?", "Qərib yolçu, yolda nələr gördün, kimlərlə qarşılaşdın?", "Qərib yolçunun neylə söhbəti", "İnsan dünya münasibətlərinin üç qayəsi", "İnsan nəfsi və dünya", "Dünya və axirət qazanmaqda səbir, riza və təvəkkülün fəziləti", "Dünya, su, insan və mədəniyyətlər", "Mən dərddən doğuldum, dərd məndədi, dərd mənəm", "İnsanın özünü və ətraf aləmi dərki: təhsil və elm", "Paklıq və halallıq dünyası, insanlıq mərtəbəsi", "Ölüm və mən" adlı bölmələri oxuduqca bunun bir daha şahidi olursan. Bəli, bu gün israfın artdığı, sevginin və düşüncənin azaldığı dünyada insanların ruhunu qorumaq üçün mənəviyyata xidmət edən elmə ehtiyac var. Çünki yalnız maddi dünyanın sevgisi ilə alışan insanların içində bir ruh yanır. Ruhsuz insanlarla isə dünya çox sıxıcı görünür. Daxilimizdəki mənəvi ruh, milli ruh qorunmalıdır.

Əgər müəllifin yeni nəşr edilmiş birinci kitabı mənəvi dünyamızın qorunmasına, yaşadılmasına, dərkinə xidmət edirsə, ikinci kitab "Kitabi-Dədə Qorqud və Naxçıvan: qarşılaşdırmalı etnoqrafik motivlər" adlı əsər milli ruhumuzun, milli kimliyimizin ən böyük tarixi-bədii ifadəsi sayılan "Kitabi-Dədə Qorqud" dastanına, bu dastanın motivlərinin Naxçıvandakı ictimai-etnoqrafik həyatın müxtəlif sahələrində inikasına həsr edilmişdir.

Kitaba ön söz yazmış AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin sözləri ilə ifadə etsək, "Kitabi-Dədə Qorqud" dastanının mükəmməl tədqiqatçısı, görkəmli etnoqraf, AMEA-nın müxbir üzvü Qadir Qədirzadənin yeni monoqrafiyasında təkcə dastanın müqəddiməsi və müxtəlif boylarda işlənən etnoqrafik materiallara, fikir və deyimlərə, onların Naxçıvandakı izlərinə, işlədilmə formalarına diqqət yetirilməmişdir. Əsərdə həm də "Bilqamıs" dastanı ilə "Kitabi- Dədə Qorqud" dastanlarının ortaq cəhətləri, Bəkdüz Əmən haqqındakı fikir və mülahizələr araşdırılmış, dastandakı döyüşçü qadınlarla Xaraba Gilandakı Plovdağ qazıntılarında rast gəlinən izlər arasındakı fərqli və oxşar əlamətlərə diqqət yetirilmişdir.

Hələ nəşrindən öncə sətir-sətir oxuduğumuz bu əsərdə hər bir bölüm, hər bir paraqraf yeni faktlarla zəngindir. "Kitabi-Dədə Qorqud"un müqəddiməsində Nuh Peyğəmbərlə bağlı deyim və Naxçıvan paralelləri" adlanan hissədə Nuh Peyğəmbərin qızları ilə bağlı rəvayət və məsəllər, "Qambörənin oğlu Bamsı Beyrəklə bağlı boy" adlanan hissədə beşikkəsmə, göbəkkəsmə və deyikli adətləri, toy və ulu toy ilə bağlı məqamlar xüsusilə maraq doğurur. Toylarımızda işlədilən yeni ailə həyatı quran gənclərə niyə, sadəcə olaraq, "bəy" deyil, "təzə bəy" deyilməsi, bu ifadənin genezisi ilə bağlı məqamlar, əminəm ki, oxucular üçün yeni olacaqdır. "Uşun Qoca oğlu Səgrək" boyunda dastanda Əlincə qalasında məskunlaşmış Qara Təkur tərəfdarlarının kimlər olması ilə bağlı aparılan etnoqrafik araşdırmalar, bu boyda döyüşən hər iki tərəfin müxtəlif inanclı türk tayfaları olması ilə bağlı etnoqrafik faktlar geniş oxucu kütləsi üçün bir çox suallara aydınlıq gətirəcəkdir.

Tarixi sənədlər və mənbələr sübut edir ki, Naxçıvan orta əsrlər boyunca müxtəlif səhabələrin, onların övladlarının, peyğəmbər soyundan olanların üz tutduqları, sığındıqları məkanlardan biri olmuşdur. Eyni zamanda burada həm də Məhəmməd Peyğəmbərin zamanında bu ellərdən gedərək dünyanı şərəfləndirən İslam Peyğəmbərinin üzünü görən insanlar var idi. Əsərin "Peyğəmbər səhabəsi Bəkdüz Əmən" başlıqlı hissəsində müəllif çox maraqlı faktlara toxunmuşdur.

*Ümumilikdə, bir daha qeyd edək ki, hər iki kitab çox maraqlı faktlarla zəngin olmaqla milli və mənəvi dəyərlər dünyamızı işıqlandıran fundamental tədqiqat əsərləridir.*

**Elnur KƏLBİZADƏ**

# 2016-cı ilin quruculuq ərməğanları
## *Müasirləşən kəndlərimiz*


Naxçıvan şəhərinin Bulqan kəndi


Şərur rayonunun Arbatan kəndi


Babək rayonunun Hacıvar kəndi


Şahbuz rayonunun Kiçikoba kəndi


Ordubad rayonunun Baş Dizə kəndi


Kəngərli rayonunun Yurdçu kəndi


Culfa rayonunun Gülüstan kəndi


Babək rayonunun Məzrə kəndi


Şərur rayonunun Oğlanqala kəndi

***Bu diyara belə kəndlər yaraşır, yeri abad, evi abad, suyu bol. Bu kənd indi şəhərimlə yarışır, inanmırsan, gəl sən özün şahid ol. Çaylarımdan nur çilənir kəndimə, məktəbi var şəhərlərə nümunə. Mavi alov hərarətdi evlərə, belə bir kənd harada var, de mənə? Abad kəndim, abad elim, obam var, yaşayıram rahat, məsud, firavan, bu kənd mənim, bu kənd sənin, onundu, həyat rahat, bağlar gülşad, yol rəvan.***

***Kənddən yaranıbdı böyük şəhərlər, kəndlə canlanıbdı obalar, ellər, kəndlər əcdadıdı şəhərlərimin, kəndlər dayağıdı bərəkətimin. İndi kəndim olub kiçik bir şəhər, yenilik gətirir açılan səhər. Bu yeni növrağı görən hər insan, dəyişən kəndimə olaraq heyran yaradan əllərə min alqış deyir, ürəkdən şad olur, gülür, sevinir.***

***Bu gün gözəl, abad kəndlərim varsa, şəhər timsalında yurd yerim varsa, demək var olacaq bolluq, bərəkət, xoş, firavan həyat olacaq qismət. Görülən işlərdən ruhlanan insan böyük bir həvəslə əkib-biçəcək, tarlalar qızılı bir don geyəcək.***

***Bu diyara belə kəndlər yaraşır. Yeri abad, evi abad, ruzi bol...***

**Səbuhi HÜSEYNOV**

***Muxtar respublika ərazisində uşaq və yeniyetmələr arasında başlanğıc və məhdud formalı vərəmin erkən aşkar olunub vaxtında müayinə və müalicəyə cəlbi üçün I - XI sinif şagirdləri arasında kütləvi tuberkulin diaqnostikası – Mantu sınağı aparılıb. Bunun üçün əvvəlcədən zəruri təşkilati tədbirlər görülüb.***

## Ümumtəhsil məktəblərində tuberkulin diaqnostikası başa çatıb

Muxtar respublikanın tibb müəssisələrində çalışan həkim-pediatr və vaksinatorlar üçün seminar-məşğələ keçirilib. Orta məktəblərdə çalışan tibb işçilərinə lazımi təlimatlar verilib, onlarla söhbətlər aparılıb. Rayon mərkəzi xəstəxanaları, eləcə də gigiyena və epidemiologiya mərkəzləri tərəfindən xidmət ərazilərində Mantu sınağına cəlb ediləcək uşaqların siyahıları tərtib olunub. Ərazi prinsipi üzrə bir həkim və iki tibb işçisindən ibarət yaradılmış xüsusi briqadalar sınaq materialı ilə təchiz edilib.

Dekabr ayının əvvəlindən başlanan kampaniyaya muxtar respublika ərazisindəki tam orta məktəblərin 31 min 727 şagirdi cəlb olunub. Tuberkulin diaqnostikası Naxçıvan şəhəri, Culfa, Kəngərli və Sədərək rayonlarında daha mütəşəkkil keçirilib. Naxçıvan şəhərində 10 min 752 şagirddən 10 min 500, Culfa rayonunda 2 min 350 şagirddən 2 min 331, Kəngərli rayonunda 2 min 988 şagirddən 2 min 977, Sədərək rayonunda isə 672 şagirddən 626 nəfəri sınağa cəlb edilib. Mantu sınağı digər rayonlarda da uğurla aparılıb. Sınağın nəticələri 72 saat keçdikdən sonra qiymətləndirilib və bu haqda Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinə, Ağciyər Xəstəlikləri Dispanserinə məlumat verilib. Şübhəli və müsbət reaksiyalı uşaqların Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserində dərin ftiziatr müayinəsinə və müalicəyə cəlb olunmaları təşkil ediləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Paralimpiyaçılar arasında armrestlinq üzrə yarış keçirilib

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Paralimpiya Federasiyasının təşkilatçılığı ilə dekabrın 23-də Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində paralimpiyaçılar arasında armrestlinq (qol güləşi) üzrə muxtar respublika birinciliyi keçirilib.***

Yarışın açılış mərasimində Gənclər və İdman Nazirliyinin və Paralimpiya Federasiyasının nümayəndələri çıxış edərək muxtar respublikada idmana göstərilən diqqət və qayğıdan, məhdud fiziki imkanlı şəxslərin idmana cəlb olunması istiqamətində həyata keçirilən tədbirlərdən bəhs ediblər. Vurğulanıb ki, yarışın keçirilməsində əsas məqsəd istedadlı idmançıların aşkara çıxarılmasına, məhdud fiziki imkanlı şəxslərin idmana olan maraqlarının artırılmasına, həmçinin onların cəmiyyətə inteqrasiyasına nail olmaqdır.

Yarışda 18 paralimpiyaçı iki yaş qrupunda mübarizə aparıb.

Sonda ilk üç yeri tutan idmançılara təşkilatçılar tərəfindən diplom və hədiyyələr, digər iştirakçılara isə fəxri fərmanlar təqdim olunub.

**Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Naxçıvan şəhərinin Qaraçuq kənd sakini Əliyev Nəsib Murad oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Culfa rayonunun Əbrəqunus kənd sakini Əliyarlı Fatimə Elçin qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 967